

Qərib Mehdi

# Yağış
## (bir şeir haqqında təəssürat)

***Gəncə ədəbi mühitinin ən ümidverən gənc şairi Eltun Türkellə meydanda gəzinir, çağdaş söz sənətinin durumu ilə bağlı fikir mübadiləsi edirdik. Oxucu hansı halda bədii məhsula könül açır, ya da ondan üz çevirir? Qələm sahibinin uğuru haradadır? Söhbətimiz qədərincə azaddır. Bu fikirlər mübadiləsində mövqelərimiz gah yaxınlaşır, gah da uzaqlaşırdı. Biz az qala pıçıltı ilə danışırdıq. Maraq olanda məsafədən asılı olmayaraq pıçıltını da eşitmək olur. Sanki başımız üstündə qərar tutan səma ağ buludla üzünü yuyub, qulaqlarını şəkləyib bizə qulaq asırdı.***

Nə baş verdisə, bizim də, səmanın da əhvalı dəyişdi. Bir andaca pəmbə ağ bulud layı hansı təsirdənsə yoxa çıxdı, onun yerini göy kişnərtili, şimşək qamçılı qara bulud tutdu. Şıdırğı yağış aləmi başına götürdü. Çətiri, maşını olanlar göyün qəzəbindən qurtarmaq üçün imkan tapdılar, kimlərsə daldalanacaqlara sığındılar. Ortada iki qələm sahibi – qoca Qərib Mehdi ilə cavan Eltun Türkel qaldı. Kükrəməkdə olan bulud isə nə qocaya baxırdı, nə də cavana. Bağrı yarılan yağış getdikcə leysana çevrilirdi. Vaxtilə yazdığım şeirin bir misrası yadıma düşdü: «Kim dəyib xətrinə Qara buludun?». Bilmirəm, kim dəymişdisə, Qara bulud insafı, mürvəti itirmiş, ədalət tərəzisini selə-suya qərq etmişdi. Qaçmağa, yeraltı keçidə pənah aparmağa ağrılı ayağım imkan vermirdi. Mənə görə Eltunu da öz günümə salmağa ehtiyac duymurdum. Ona görə cavan şairə dedim:

– Qara bulud dənizlərdən, okeanlardan yığdığını başımıza endirir. Sən mənə görə ləngimə, qaç, canını qurtar. Birimizin qamçılanmağımız Qara buludun qəzəbini səngidər. Tez ol, sən aradan çıx. Mən dəvəsi ölmüş ərəbəm, bir təhər dözərəm.

Qərarımdan Eltun təəccübləndi:

– Siz nə danışırsınız, müəllim, mən sizi bu halda qoyub hara gedə bilərəm? Haqq bildiyim Sözün üzünə necə baxa bilərəm?

Eltun məni birtəhər qoltuqlayıb avtobus dayanacağına çatdırdı. Minmək istəmirdim. Təkidlə məni maşına mindirdi. Özü isə qladiatorlar kimi aramsız yağışla təkbətək döyüşdə qaldı. Yağışın damcı zərbələri getdikcə artırdı. Ürəyim Eltunun yanında olsa da, avtobus məni ondan aralayırdı. Yol boyu xəcalət hissindən qurtula bilmirdim.

Bundan sonra necə oldu? Yağışla şairin mükaliməsi, dialoqu hansı sonluqla bitdi? Şair yağışı insafa gətirə bildimi? Bunu ertəsi gün Eltun mənə üzü qaralanmış bir vərəq uzadanda bildim. Nigaranlığımın cavabını o vərəqdə sıralanmış misralarda tapdım. Şeirin adı səbəbkarın kimliyini, nəçiliyini yada salırdı: «YAĞIŞ».

Fikir məni apardı. Yağış, sən kimə hücum etməyi, kimə zor göstərməyi, kimə özünü təsdiq etdirməyi yaxşı bilirsən. Qoruncağı olmayana özünü göstərməyə nə var kig Şair də onun bu xislətini suyutökülmüş üzünə deyirdi:

**Yenə bulud anan qaşını çatıb,**
**Ruhumu titrədir bu soyuq baxış.**
**Bəxtim bir qıraqda çətirsiz qalıb,**
**Məni islatmağa nə var ki, yağış...**

Yağışın başlıca vəzifələrindən biri yumşaltmaqdır, xüsusilə daşa dönmüşləri. Vaxtilə şairin babası Mirzə Ələkbər Sabir də Allaha müraciət edirdi: «Daş qəlbli insanları neylərdin, İlahi?».



Eltun da həmin söz kürsüsündən çıxış edirdi:

**Dünyanın bağrına iz at, yumşalsın,**
**Göylərdən yerlərə göz at, yumşalsın,**
**Bacarsan daşları islat, yumşalsın,**
**Məni islatmağa nə var ki, yağış...**

Bu fikirlər şairin qələmində puçurlayır: «Mən zəif, sən güclü, mən aşağıda, sən yuxarıda, mən arxasız, sən arxalı. Fərqlərə baxmayaraq, ümidliyəm»:

**Ömür dənizinin suları qırçın,**
**Sərçə qanadının ümidi laçın.**
**Üstümə şığıyır ildırım qamçın,**
**Məni islatmağa nə var ki, yağış...**

Şairin də göyqurşaqlı bir səması var. O, zühur eləyəndə aləm sevincə, heyrətə qərq olur, yaşamaq həvəsin, xeyirxah olmaq niyyətin aşıb-daşır. Amma, yağış, sən lap yaxında, əlçatarda, könülyetərdə olan bu arzulara əhəmiyyət vermirsən, insana yarasa taleyi yaşadırsan:

**Arzular qəlbimdə göllənib axmır,**
**Yarasa taleyim işığa baxmır.**
**Arzum göyqurşağı, günəşi çıxmır,**
**Məni islatmağa nə var ki, yağış...**

İnsanın ən sadiq dostu kölgəsidir. Nə qədər günəş parlayırsa, işıq varsa, bu dostluq sadiqliyini qoruyur. Günəş insanı tək qoyanda, işıq Qara buluda təslim olanda güvənc itir, yaşamaq eşqi öləziyir. Bu halı yaşayan insanın gözü də ağrılı bir göyə çevrilib yağışını ələyir. Gözəl bədii nümunə ovqat məhsulu sayılsa da, çox dərin mətləblərdən xəbər verir.

**Kölgəmi özümə dost sanmışam mən,**
**Dərdimin külünə bulanmışam mən.**
**Gözümün yaşına islanmışam mən,**
**Məni islatmağa nə var ki, yağış...**

Ötəri ümidsizlikdir. Bir azdan Qara bulud ətəyini yığışdıracaq, şimşək qamçısından imtina edəcək, yerini açıq – günəşli səmaya verərək çəkilib gedəcəkdir. İnsanın mətinliyi yenidən özünə qayıdacaqdır. Bulud inad göstərərsə, rəqibinin daha inadkar olduğu ilə üzləşəcəkdir.

***Hələliksə Eltun gözünün yaşında islanıb. Elə mən də. Ancaq müəllifdən fərqli olaraq mənim göz yaşım sevincdən çağlayırdı. Sevinirdim ki, nə yaxşı o yağış yağdı, bizi selə-suya qərq elədi. Onun «pisliyi» itmədi, hisslərlə mayalanan Eltun Türkelin şair qələmi Ana oldu, «Yağış» adlı düşündürücü bu şeiri ədəbiyyatımıza bəxş elədi.***

***Eltun, yeni uğurlarını gözləyirəm.***

Rəfiyəm, neyləyim bu dərdə-sərə,
Məni o dağlara apara yollar.